# Mənəvi - əxlaqi dəyərlərimizdə müasirliyin qarşılıqlı əlaqəsi

*Adət və ənənələr maddi və mənəvi tərəqqinin nəticəsi kimi milli təkamülün göstəricilərindən biri olmuşdur. Təkamülün tarixi mərhələlərlə baş verməsi ayrı-ayrı ictimai formasiyalara məxsus olan adət və ənənələri, mərasim və bayramları da bir-birindən fərqləndirmişdir. Hər bir sosial quruluşun öz adət və ənənələri olmuşdur. Lakin adət və ənənələrdə mühafizəkarlıq da xüsusi yer tutmuşdur. Xüsusilə, dini mənsubiyyətlərlə bağlı olan adət və ənənələrdə modernləşmə olsa da, köhnəliyin əlamətləri mühafizə olunub, saxlanılmışdır. Adət və ənənələrdə mövcud olan mühafizəkarlıq hər bir xalqın keçmiş mədəni irsinin qoruyucusuna çevrilmiş, onların yaddaşlardan silinməsinin qismən də olsa, qarşısını ala bilmişdir.*

*Milli adət və ənənələrin öyrənilməsi, onların mənəvi dəyərlər sistemindəki rolunun tədqiqi həmişə aktual olmuşdur. Çünki milli adət və ənənələr tarixin bütün mərhələlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi kimi nəzərə çarpmışdır. Cəmiyyət inkişaf etdikcə adət və ənənələr də ayrı-ayrı quruluşların ictimai-siyasi xüsusiyyətlərinə bu və ya digər formada inteqrasiya etmişdir. Buna görə də, hər bir ictimai-siyasi quruluş həm bütövlükdə adət və ənənələrə, həm də onun mənəvi-bədii dəyərlərinə öz möhürünü vurmuşdur. Cəmiyyət dəyişdikcə, adət və ənənələr də təkmilləşmiş, millətin, xalqın yaradıcılıq nümunələrini özündə yaşatmış, nəsildən-nəslə ötürülmüşdür. Yeni yaranan hər bir mənəvi dəyər isə tarixi ənənələrimizin varisi kimi təşəkkül tapmışdır. Bu səbəbdən də bütün dövrlərin adət və ənənələrində baş verən yeniliklərin, istiqamətlərin öyrənilməsinə, əldə olunan tarixi təcrübənin müasir kulturologiya və sənətşünaslıq elmlərinə tətbiq edilməsinə böyük ehtiyac vardır.*

Bildiyimiz kimi, uzun illər ərzində öz müstəqilliyini itirmiş Azərbaycan xalqının bir çox milli-mənəvi dəyərləri deformasiyaya uğramış, tarixin yalnız şifahi yaddaşına çevrilmişlər. Keçmiş sovet dövlətinin kommunist ideoloji mühiti isə dini-milli adət və ənənələrimizin öyrənilməsinə və təbliğinə qadağalar qoymuşdur. Yeni adət və ənənələr adı altında əsasən sosialist həyat tərzinin mahiyyətini və məzmununu ifadə edən ideoloji, siyasi xarakterli mənəvi amillər diqqət mərkəzinə çıxarılmışdı. Sözsüz ki, xalqımıza, onun milli xüsusiyyətlərinə və iradəsinə uyğun olmayan cəhətlər hakim zümrə tərəfindən bədii yaradıcılıq sahəsinə diqtə edilmişdi. Xüsusilə, sovet məkanında mədəniyyət və incəsənət kommunist əxlaqı prinsiplərinin emosional vasitələrinə çevrilmişdi. Mədəni inkişafın sosialist realizmi metoduna, üsluçuna uyğunlaşdırılmasına üstünlük verilmişdi. Ancaq bu dövrdə də Azərbaycan sənətkarları tarixi varislik prinsipindən imtina etməmiş, milli-ənənəvi keyfiyyətləri müasirləşdirməyi, onları mənəvi meyara çevirməyi bacarmışlar. Yəni, mədəniyyət və incəsənət ənənəvi olaraq milli bədii-estetik mahiyyətini itirməmiş, keçmiş irsimizin tarixi təcrübəsindən bəhrələnə bilmişdir. Təbii ki, bu bəhrələnmə əsasən empirik anlayışlarda daha çox nəzərə çarpmış, rasional təfəkkürdə isə dini-milli olana qarşı cəmiyyətin siyasi, ideoloji çaxışlarına uyğun olaraq yanaşılmışdır. Xüsusilə, kulturologiya və sənətşünaslıq sahəsində tarixi-ənənəvi təcrübənin nəzəri problemlərinin öyrənilmə metodları sosialist realizmi metodları və yanaşma tərzi ilə məhdudlaşdırılmışdı. Bu da mədəni-mənəvi təkamülün tədqiqinin ideoloji baxışlara uyğunlaşdırılmasına zəmin yaratmışdır. Halbuki, hələ vaxtilə G.V.Plexanov incəsənətin estetikası və metodologiyasını şərh edərkən estetik zövqün və estetik qiymətləndirmənin tarixiliyini xüsusi olaraq qeyd etmişdir.

Azərbaycan mədəniyyəti və incəsənəti hələ qədim daş dövründən başlayaraq bəşər tarixinin bütün ictimai, siyasi, bədii-estetik xüsusiyyətlərini özündə əks etdirir. Pedaqoq-kulturoloq alim Ələkbər Məmmədovun təbirincə desək, "Milli adət və ənənələr, mərasimlər xalqımızın milli sərvətidir. Onları öyrənmək, öz əməli fəaliyyətlərində ləyaqətlə yaşatmaq hər bir tədris-tərbiyə müəssisəsinin, hər bir azərbaycanlının müqəddəs borcudur".

Məhz elmə, mədəniyyətə qarşı ideoloji yanaşma elmi təhlildə qeyri-obyektiv münasibətlər doğurmuş, adət və ənənələrin bədii-estetik əhəmiyyətinin, milli-tarixi, təcrübi mahiyyətinin öyrənilməsini məhdudlaşdırmışdır.

Adət və ənənələrimizdə milli-bədii cəhətlərin dini etiqad hissi ilə bağlılığı, eyni zamanda bəşəri mənəvi mahiyyət daşıyan incəsənət nümunələrinin milli-estetik zövqün formalaşmasına təsiri tədqiqatın əsas mövzu obyekti kimi nəzərdə tutulmuşdur.

İndiki dövrdə Azərbaycanın milli adət və ənənələrinin bədii-estetik mahiyyətinin öyrənilməsinə, kulturologiyanın müasir tələblərinə uyğun olaraq milli mentalitetlə bədii-emosional xüsusiyyətlərin vəhdətinin tədqiqinə böyük ehtiyac vardır.

Azərbaycanın mədəniyyət və incəsənəti qədim tarixi köklərə malik olduğundan bəşəri təkamülün bütün mərhələlərində ənənəvi milli yaradıcılıq prinsipləri qorunub saxlanılmış, sənətin müasir mərhələsində də varislik amili öz əhəmiyyətini itirməmişdir. Lakin incəsənətin adət və ənənələrlə qarşılıqlı əlaqələrinin öyrənilməsinə, müəyyən oçyektiv səbəblərə görə, az diqqət yetirilmişdir. Azərbaycanda bədii-emosional yaradıcılığın milli-ənənəvi cəhətlərinin mahiyyəti rus mədəniyyətşünaslığı və sənətşünaslığı fonunda kiçildilmiş, "beynəlmiləlçi" mədəniyyətin təbliği və inkişaf etdirilməsi adı altında ayrı-ayrı xalqların milli-etnik, dini-rasional xüsusiyyətlərinin tədqiqinə az diqqət yetirilmişdir. Rus alimlərindən D.M.Uqrinoviç, V.A.Zots, A.S.Vıqodski, P.S.Quryeviç, M.S.Kaqan, İ.N.Krotova, A.A.Leontyev, Y.İ.Smirnova və başqaları marksizm-leninizm metodologiyasına uyğun olaraq mədəniyyətin və incəsənətin elmi mahiyyətini və tarixi köklərini tədqiq edərkən mövcud quruluşun ideoloji tələblərindən kənara çıxa bilməmişlər. Eyni zamanda onların kulturologiya sahəsində apardıqları tədqiqatlar da rus adət və ənənələri, sosialist realizmi məkanı daxilində öz həllini tapmışdır.

Keçmiş SSRİ-nin tərkiçində olan bütün respuçlikaların mədəniyyət və incəsənət təmayüllü təhsil ocaqlarında rus xalqının milli xüsusiyyətlərini əks etdirən dərsliklərdən istifadə olunmuş, əslində rus mədəniyyəti, incəsənəti, adət və ənənələri təçliğ edilmişdir. Yerlərdə milli kültürlərin öyrənilməsinə isə ateizm mövqeyindən yanaşılmış, qismən dini mahiyyət kəsç edən adət və ənənələrin estetik dəyəri, bədii-mədəni xüsusiyyətləri də diqqətdən yayındırılmışdır.

Klassik mədəniyyət və incəsənətimizlə müasirliyin qarşılıqlı vəhdətinin zəruriliyinin, eyni zamanda milliliklə bəşəriliyin əlaqəsinin təkamülə təsirinin əhəmiyyətinin tədqiqi həmişə akual olmuş və indi də aktualdır.

Aparılan araşdırmalar nəticəsində mədəniyyət və incəsənətin irsi xarakteri üzə çıxır. Azərbaycan sənətkarlarının, yaşayıb-yaratdıqları tarixi mərhələlərdən asılı olmayaraq, ruhən bir-birlərinə oxşarlıqları aşkar edilir. Bu cəhətlər Əcəmi Əbubəkir oğlu Naxçıvaninin memarlıq sənətində də, Sultan Məhəmmədin miniatürlərində də diqqətdən yayınmır. Onların yaratdıqları mənəvi-irsi xüsusiyyətlər müasir sənətkarların əsərlərində də bu və ya digər formalarda özünü birüzə verir. Eyni zamanda milli poetik düşüncə məkanında baş verən təkamül də milli-irsi xüsusiyyətlərə istinadən davam edir, müasirləşir. Şairlərimiz, aşıqlarımız, başqa lirik söz ustalarımız mənəvi irsi tarixi köklər üzərində yaşadır və milli-mənəvi yaradıcılığın ənənəvi üslublarından, formalarından bir məktəb kimi istifadə edirlər. Məhz mövcud olan bu xüsusiyyətlərin öyrənilməsi isə bu günümüz üçün aktualdır.

Belə bir nəticəyə gəlmək olar ki, insanın fizioloji varlığında olduğu kimi onun yaratdığı və yaşadığı mənəvi aləmin özündə də kökə bağlılıq, ənənəyə sadiqlik xüsusi yer tutur. Bəşəriyyət nə qədər təkamül etsə də, mənəvi köklərdən tam şəkildə ayrılmaq mümkün deyildir. Mənəviyyatda baş verən modernləşmə isə forma və məzmunu zənginləşdirən, bədii təfəkkürü müasir quruluşa, davranış normalarına uyğunlaşdıran əsas amillərdən biri kimi qiymətləndirilməlidir. Yəni modernləşmə ənənəvi olanı heç zaman kökündən silib ata bilmir, əksinə nə qədər inkişaf və yeniləşmə baş versə də, köklə bağlı əlamətlər mənəviyyatın bütün tərəflərində istər-istəməz özünü biruzə verir. Elə buna görə də peşəkar incəsənətin bütün növlərində xalq yaradıcılığının əlamətlərini görmək mümkündür.

Bir həqiqəti bilmək lazımdır ki, lap qədim zamanlardan insanların adət, ənənə, mərasim incəsənəti yaranmışdır. Şamanların mərasimlər zamanı öz bədənlərini müxtəlif rənglərlə bəzəməsini, xüsusi mərasim rəqslərini və mahnılarını ifa etmələrini buna misal göstərmək olar. Hətta dəfn mərasimlərində də özünəməxsus incəsənət xüsusiyyətləri yaranmış və bu xüsusiyyətlər indi də

